Azad AZƏRBAYCAN
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
22 aprel 2021-ci il №27 (3682)


# "Sədərək şəhidləri və qəhrəmanları": Yeni kitabın təqdimatı keçirilib

**Qədim Sədərək kəndi Naxçıvan MR-də özünəməxsus yerə malikdir. Bu kəndin cəsur övladları torpağı həmişə göz bəbəyi kimi qoruyub, düşməni torpağa ayaq basmağa qoymayıblar. Belə igid oğullardan Həbib Babayev, Zellabdın Qədimov, Həbib Fərzəliyev, Ələkbər Sadıqov, Cəlil Əliyev və başqaları hələ 1918-1920-ci illərdə xalqımızın qəhrəman oğlu, alovlu vətənpərvər Abbasqulu Şadlinskinin təşkil etdiyi "Qırmızı tabor" dəstəsində 70-dən artıq sədərəkli ilə birgə iştirak ediblər.**




Böyük Vətən müharibəsində də 462 sədərəkli döyüşərək böyük şücaət göstəriblər. Ata-baba yolunu davam etdirən gənclərimiz isə Qarabağ müharibəsində rəşadətləri ilə yadda qalıblar. 109 şəhid torpaq uğrunda canlabaşla vuruşublar. 44 günlük Vətən müharibəsində isə 4 nəfər Sədərək övladı şəhid olub.

Bu günlərdə Sədərək rayon 1 nömrəli orta məktəbində keçirilən tədbir də sədərəkli şəhidlərə və qəhrəmanlara həsr olunub. Tədbiri məktəbin direktoru Sirac Qarayev açaraq iştirakçılara və şagirdlərə yenicə işıq üzü görmüş "Sədərək şəhidləri və qəhrəmanları" kitabı və müəllifi haqqında ətraflı məlumat verib. Qeyd olunub ki, Hacı Tofiq Seyidzadə bir müəllif kimi 88-ci kitabını tamamlayıb. Onun "Sədərək alimləri və Şam ömrü", "462 sədərəkli BVM-də döyüşçüsü", "Şəhidlər Sədərək məktəbinin məzunlarıdır", "Sədərəyin dünəni və bu günü", "Alimlərimizlə fəxr edirik", "Onlar heç zaman unudulmayıb", "Sədərəyin alovlu vətənpərvər oğulları", "Orta məktəb illəri də bir tarixdir" adlı kitabları hamımıza yaxşı məlumdur. Bildirilib ki, müəllif bu kitablarda olduğu kimi tarixə istinad edir, qəhrəmanları arayıb-axtarır, oxuculara çatdırır: **"Məni sevindirən odur ki, müəllif həqiqətən çox**



**faktları dəqiq üzə çıxardaraq oxucusuna çatdırır. Bu kitaba görə pedaqoji kollektiv adından müəllifə uğurlar arzu edirəm".**

Əməkdar müəllim Sultan Nadirsoy isə qeyd edib ki, yenicə nəşrdən çıxmış kitab olduqca dəyərlidir: **"Mən çox sevinirəm ki, bu gün mənə dərs deyən sevimli müəllimimlə üzbəüzəm. Hacı Tofiq Seyidzadə tariximizi, mədəniyyətimizi yaxşı bilir. Ona görə də, qəhrəman Sədərək övladları haqqında belə əsərlər qələmə alır. Bu kitabda leytenant Şah Nadirli Ərtoğrul Hümbət oğlu, Abdullayev Tağı İlham oğlu, Niyaməddin Ələkbərov və müharibədən sağ-salamat qayıtmış üç Sədərək övladı haqqında ətraflı məlumat toplayıb. Onların şücaəti, qəhrəmanlığı olduğu kimi qələmə alınıb. Mən çox fərəhlənirəm ki, Hacı Tofiq Seyidzadə bu yaşında belə dəyərli kitab yazıb, oxuculara təqdim edib. Kitabda şəhidlərimiz haqqında dəyərli fikirlər çoxdur".**

Tədbirdə məktəbin keçmiş direktoru Həsən Rzayev də çıxış edərək bildirib ki, müəllimə ondan yüksək qiymət verən ola bilməz:

*"Hər vaxt lənətlədin hiyləni, kini,*
*Dedin: "Həyatda bir pak əməl qalar"*
*Əlinlə ilk hərfi yazan əlini,*
*Öpsəm müəllimim, başım ucalar.*

Hacı Tofiq Seyidzadə mənə rus dili dərsini deyib. O, bizə rus dilini mükəmməl öyrədib. Bu gün həyatda biz nə qazansaq öz müəllimimizə borcluyuq. O, yaradıcı insandır, hər şeyi dəqiq bilən, intellektual səviyyəli ziyalıdır. Kitabda müəllif çox dəyərli faktlara söykənir. Bu faktlar müəllifdən çox zəhmət tələb edir. Hacı Tofiq Seyidzadə bir pedaqoq kimi hamıyla səmimi, hər kəsin yerini bilən bir müəllim olub. bu kitabı oxuyanda mən çox kövrəldim. Doğrudan da igid döyüşçülərimiz çox vətənpərvər, torpaqlarını sevənlər olub. Müəllifə müvəffəqiyyətlər arzu edirəm".

1 nömrəli Sədərək orta məktəbinin müəllimi Məhərrəm Seyidov çıxışında qeyd edib ki, o Şah Nadirli Ərtoğrulu, Tağı Abdullayevi, Niyaməddin Ələkbərovu yaxşı tanıyırdı: **"Onlar harda oxuyurdularsa məktəbin başını uca edirdilər. Hərbi sirləri yaxşı öyrənirdilər. Həmişə Vətəni dardan qurtarmağa çalışırdılar. Ona görə də bu şəhidlər döyüşlərdə fəal iştirak edərək, canlarını fəda etdilər".**

Sədərək rayon Veteranlar Təşkilatının sədri işləmiş, 40 ildən artıq hərbinin sirlərini şagirdlərə öyrətmiş, müəllim-veteran Teymur Quliyev isə çıxışında Hacı Tofiq Seyidzadənin 44 kitabını oxuduğunu bildirib.

**Tədbirin sonunda Hacı Tofiq Seyidzadə çıxış edərək Sədərək rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimova, Sədərək rayon Təhsil şöbəsinin müdiri Malik Məmmədova, məktəb rəhbərliyinə tədbirin təşkili üçün öz təşəkkürünü bildirib. Sonra müəllif tədbir iştirakçılarına və şagirdlərə kitab hədiyyə edib.**

**QUMRU**